*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 123-131* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.123*

# Əzizə Cəfərzadə yaradıcılığında Cənubi Azərbaycan mövzusu

**Lətifə Mirzəyeva**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Azərbaycanın Xalq yazıçısı, professor Əzizə Cəfərzadəni bütün həyatı və yaradıcılığı boyu Cənubi Azərbaycan mövzusunun maraqlandırması, cənublu soydaşlarımızın qarşılaşdıqları çətinliklərin narahat etməsi onun həm yazıçı, həm alim və həm də bir vətənpərvər insan kimi bu sahədə qələmə aldığı əsərlərində, tədqiqatlarında özünü göstərir. Yazıçı-alimin bu mövzu ilə bağlı qələmə aldığı istər tədqiqat, istər bədii əsərləri və istərsə də səfər təəssüratları, müsahibələri oxunaqlılığı, təsirləndirici xarakteri və öyrənilməsinə ehtiyaclılıq baxımından seçilir.
Onun gərgin ədəbi və elmi yaradıcılığı ilə bərabər, Azərbaycan sənətkarlarının – xüsusilə hüquqsuz, əsarətdən qurtulmaq arzularını gizlin yazdığı şeirlərində ifadə edən və üzə çıxara bilməyən Cənubi Azərbaycan qadınlarının həyatı və yaradıcılığını tədqiq edib aşkara çıxarmaq, bütün dünyada tanıtmaq kimi çətin və nəcib işlə də məşğul olması təqdirəlayiqdir. Bu nəcib işinə Vətənimizin hər iki tərəfində, hətta Avropa ölkələrində belə böyük maraq göstərilmiş və minnətdarlıq hissi ilə yanaşılmışdır. Ə.Cəfərzadənin Cənubi Azərbaycanla bağlı əksər əsərləri, tədqiqatları ədəbi aləmdə əks-səda doğurmuş və yeni-yeni əsərlərin yaranmasına yol açmışdır. Onun bu sahədəki əməyi Azərbaycanın həm o tayında, həm də bu tayında yüksək qiymətləndirilmişdir.
**Açar sözlər:** Vətən həsrəti, nisgil, ayrılıq, ana dili, fikir birliyi

**Məqalə tarixçəsi:** göndərilib – 03.03.2025; qəbul edilib – 17.03.2025

# The theme of South Azerbaijan in the creativity of Aziza Jafarzade

**Letife Mirzayeva**
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** Aziza Jafarzade, Azerbaijani National writer, professor throughout her life and creativity was interested in the theme of South Azerbaijan, was concerned about the hardships our Southern citizens faced; all of this is reflected in her works and researches written in this field as a scientist, writer and patriot. The researches, artistic works, travel impressions and interviews of the writer-scientist stand out with their readability, engaging character and research.
She was engaged in intense literary and scientific creativity, besides that she was also engaged in the difficult task of researching, revealing and promoting the lives and creativity of Azerbaijani masters – especially, South Azerbaijani women who secretly expressed their desire for freedom from slavery in their poems but could not reveal it. Her noble work has been met with great interest and appreciation on both sides of our Homeland, and even in European countries. Most of Aziza Jafarzade's works, researches related to South Azerbaijan had a great impact in the literary world and paved the way for the creation of new works. Her effort in this field has been greatly appreciated on both sides of Azerbaijan.
**Keywords:** longing for homeland, grief, separation, native language, consensus

**Article history:** received – 03.03.2025; accepted − 17.03.2025

## Giriş / *Introduction*

Şimali Azərbaycan ədəbiyyatında Cənubi Azərbaycan mövzusu 1803-1813 və 1826-1828-ci illərdə meydana gəlmişdir. Şimali Azərbaycan ədəbiyyatında Cənubi Azərbaycan mövzusu ilk növbədə XIX əsr ədəbiyyatımızın görkəmli nümayəndəsi Abbasqulu Ağa Bakıxanovun (1794-1847), dahi mütəfəkkir Mirzə Fətəli Axundzadənin (1812-1878), dünya şöhrətli satira ustası Mirzə Ələkbər Sabirin (1862-1911), görkəmli ədib Cəlil Məmmədquluzadənin (1866-1932), ədəbiyyatımızda tarixi roman janrının əsasını qoyan Məmməd Səid Ordubadinin (1872-1950), çoxcəhətli ədəbi fəaliyyəti ilə seçilən Abdulla Şaiqin (1881-1959), XX əsr ədəbiyyatımızın ən görkəmli simalarından olan Cəfər Cabbarlının (1899-1934) və başqalarının əsərlərində özünü göstərmişdir.

Öz yaradıcılığında Cənubi Azərbaycan mövzusuna müraciət etməyən qələm sahibi tapmaq çətindir. Cənubi Azərbaycanla bağlı elə mühüm hadisə, görkəmli şəxsiyyət, təsirləndirici fakt yoxdur ki, şair və nasirlərimiz tərəfindən öz əsərləri vasitəsilə onlara vaxtında və obyektiv münasibət bildirilməsin.

## Əsas hissə / *Main Part*

Azərbaycanın Xalq yazıçısı, professor Əzizə Cəfərzadəni (1921-2003) həm yazıçı, həm tədqiqatçı, həm vətənpərvər, xalqsevər bir insan kimi o taylı-bu taylı ədəbiyyatımızın inkişafına töhfə olan bütün yaradıcılığı boyu maraqlandıran mövzulardan biri də Cənubi Azərbaycan olmuşdur. Hələ Əhməd Cavad adına Mədəni Maarif Texnikumunda keçirilən "Şəhriyar günü"ndə iştirak edərkən Texnikum tələbələrinin bir-birinə həsrət o taylı-bu taylı bacı-qardaşların ayrılıq bəlasını böyük bir yanğıyla ifa etmələrini, tədbir iştirakçılarının sərhədin yaxınlığına buraxılmaları sevincini yaşamalarını, bütün həsrət gözlərin uzun illərdən bəri ayrı düşmüş Vətənin ikinci parçasına zillənməsini seyr edən, özü demişkən, "xəstə, dərdli olanda bayatılamağa başlayan" yazıçı astadan Araz bayatıları söyləyirdi:

*Araza gəmi gəldi,*
*Suların nəmi gəldi.*
*Dur bir qol-boyun olaq,*
*Ayrılıq dəmi gəldi.* [6, s.243]

Sərhədə qəlbi yaralı, həsrətli gedən tədbir iştirakçılarının qırıq könüllə, yaşlı gözlə tikanlı məftilləri tərk etmələri də Ə.Cəfərzadənin ürəyini yandırıb yaxmışdı. O taylı-bu taylı Azərbaycan xalqına ana, bacı, övlad olan Ə.Cəfərzadə əgər 1982-ci ildə Cənubi Azərbaycanın alovlu şairi, istedadlı nasiri, fədakar müəllimi, cəsur inqilabçısı, xalqımızın igid qızı Mərziyə Əhmədi Üskuini (1945-1974) bir ana kimi "qızım" "gəlinim", "balam" adlandırıb onun ölümünə ağı deyərək necə göz yaşı tökürdüsə, 1988-ci ilin sentyabrında Millətlərarası türkoloji konqresdə ustad şair Məhəmmədhüseyn Şəhriyarın (1906-1988) vəfatı ilə əlaqədar şairin qızı, bacısı, anası əvəzinə dünyanın tanınmış türkoloqlarının başsağlığını da elə qəbul edirdi.

Bu barədə yazıçı "Ustad Şəhriyarla bağlı xatirəm" sərlövhəli yazısında deyir: "Cavad Heyətin – "Ustad keçinib. Dünyasını dəyişib. İndicə Tehrandan xəbər verdilər" sözlərindən sonra hamı bir-birinə dəydi. Donub dayanmışdım. Ağlaya bilmirdim. Boğazım qurumuşdu. Bircə onu bilirdim ki, Yaponiyanın, ABŞ-ın, İngiltərənin... bir sözlə bütün dünyanın tanınmış türkoloqları mənə yaxınlaşıb başsağlığı verir. Əvvəlcə heyrət etdim. Mən kiməm? Sonra düşündüm. Mən burada bu dəmdə azəri türk qadınıyam, onun qızı, bacısı, anası əvəziyəm. Mənə də başsağlığı verilməyib, kimə verilməlidir" [6, s.246].

Ə.Cəfərzadənin 1990-cı ildəki İran səfəri zamanı Cənubi Azərbaycan şairi, nasiri, naşiri Əli Təbrizi də kitablarına "Bacı" yazaraq ona təqdim etmiş, görkəmli şair, nasir, publisist Kərim Məşrutəçi Sönməz göndərdiyi məktubda, "Hörmətli alim bacımız!", – deyə ona müraciət etmiş və

şair, professor Qulam Rza Səbri Təbrizi də “Əzizə Cəfərzadənin xatirəsinə” adlı şeirində yazıçı-alimi “Şəhidlərin anası, qəriblərin anası” adlandırmışdır.

Ə.Cəfərzadə gərgin ədəbi və elmi yaradıcılığı ilə bərabər, Cənubi Azərbaycan sənətkarlarının da həyatı və yaradıcılığını tədqiq edib üzə çıxarmaq, onları ölkəmizdə və bütün dünyada tanıtmaq sahəsində çox iş görmüşdür. Bu sahədə ictimai-mənəvi təzyiqlərə düçar olan, hüquqsuz, əsarətdən qurtulmaq arzularını pünhani yazdığı şeirlərində ifadə edən və üzə çıxarılması heç də asan başa gəlməyən qadınlar daha çox üstünlük təşkil etmişdir.

Yazıçı-alimin tərtibində, “Azərbaycanın aşıq və şair qadınları antologiyası”nın 1974-cü ildə 23000 tirajla çap edilən və qısa müddətdə nadir nüsxəyə çevrilən birinci nəşrindən sonra 1991-ci ildə tələbata və toplanan yeni materialların çoxluğuna görə cənublu şairlərdən Sahib Sultan Dümbülünün, Fatma xanım Aninin, Tahirə Qürrətüleynin, Zöhrə xanımın, Mimtac xanımın, Ziba xanımLəlinin, Pərvin Etisamının, Mədinə Gülgünün, Hökumə Billurinin, Mərziyə Əhmədi Üskuinin və Səhərin (Həmidə Rəiszadə) də həyatı və yaradıcılığı haqqında məlumatın, əsərlərindən nümunələrin yer aldığı ikinci nəşri “Gənclik” nəşriyyatında işıq üzü görmüşdür. Azərbaycan qadınlığının poetik salnaməsi olan bu nəşr əsasında bir daha “Azərbaycan qadın şairləri antologiyası” 2005-ci ildə təkrar “Avrasiya-Press” nəşriyyatında çap edilmişdir. Bütün bunlar yazıçının ədəbiyyat tarixinin böyük simalarına olan tükənməz məhəbbətindən, onların özlərinin və əsərlərinin əbədiləşdirilməsinə olan qayğı və ehtiyacdan, gələcək nəsillərə də tanıdılması kimi xeyirxahlıq məqsədindən irəli gəlir.

Xalq şairi Nigar Rəfibəylinin kitabda yer almış “İşıqlı həyat həsrətində” sərlövhəli yazısında oxuyuruq: “İnsanın böyüklüyü, barışmazlığı və qüdrəti ondadır ki, o həmişə öz mənliyi, qüruru uğrunda üsyana qalxıb. Bu insanlıq üsyanında qadınlığın da öz payı var. Bəzən “üsyan” sözün müstəqim mənasında qiyam, vuruş olub, qurbanlar aparıb” [11, s.9]. Bu qurbanlardan XIX əsr şairi Tahirə Qürrətüleyn və XX əsr şairi Mərziyə Əhmədi Üskui Azərbaycan xalqına başucalığı gətirmişlər.

Ə.Cəfərzadənin antologiyaya salmaq üçün cənubda yaşayan aşıq və şair qadınların həyatı və yaradıcılığı haqqında məlumat və şeirlərindən nümunələr göndərilməsi ilə əlaqədar radio vasitəsilə cənublu soydaşlarımıza müraciətindən sonra şairlərdən Əhməd Azərlu, Məhəmməd Niqabi, Əlirza Miyanəli, Babazadə və başqaları bu işə qoşulmuşlar. Əhməd Azərlu Ə.Cəfərzadəyə göndərdiyi birinci məktubunda Əzizcan familiyalı bir şairin “Firuqi-azadi” qəzetində dərc edilən şeiri, ikinci məktubunda isə həmin qəzetin başqa bir nömrəsində yer almış Səhər Ərdəbilinin “Bülbül” şeiri ilə onu tanış etmişdir.

Fatma xala Əzizcan Miyanəli və orta yaşlı el sənətkarıdır. Təhsilsizdir, şeiri bədahətən deyib, lentə aldırıb. Onun Mədinə Gülgünün “Yora bilməz yollar məni” şeirinə cavab olaraq düzdüyü 7 bənddən ibarət şeiri “Firuqi-azadi”nin oxucularına təqdim edilmişdir:

*Mən bu yolun əhdazıyam,*
*Gah çoxuyam, gah azıyam.*
*Elin dogma sərbazıyam,*
*Yora bilməz yollar məni.* [8, s.4]

Ə.Cəfərzadə yazır ki, “Cənubi Azərbaycanda hər bir ziyalı vətəndaşlarımızın milli varlığını, dilini, mənsubiyyətini, yazısını qorumaq, təsdiq etmək uğrunda açıq mətbuatdan, hər növ təbliğat vasitələrindən istifadəyə məcbur olduqları dövrdə Fatma Əzizcanın bu misraları çağırış kimi səslənir. Şair 50 ildən ziyadə fars dilində oxuyub, yazıb, danışmağa məcbur olan böyük bir millətin dilində “ana dili öyrənərəm, yora bilməz yollar məni”, – deyir [8, s.5].

Yazıçı deyirdi ki, “məni indiki cənublu soydaşlarımıza tanıtdıran radiomuzun “Dalğalarda görüş” və başqa (“Körpü”, “Sabahımız, sevincimiz”, “Çeşmə klubu”, “Sözlü, nəğməli sətirlər” və sair silsilədən olan cənub verilişləri – L.M.) proqramları olub. Tez-tez çıxış edir və radio yolu ilə əlaqəm genişlənirdi [6, s.244-245].

Əhməd Azərlu Bakıda olarkən Ustad Şəhriyarın Ə.Cəfərzadənin "Dalğalarda görüş" verilişlərindəki bütün çıxışlarını maraqla izlədiyini söyləyir və həmin günlərin birində birgə çəkdirdikləri, arxasında M.Şəhriyarın "Alim xanım və ədib Əzizə Cəfərzadəyə təqdim olunur" sözləri yazılmış şəkilini ona təqdim edir.

Ə.Cəfərzadə yazır: "Az qala ağlımı itirmişdim. Deməli məni orada, təkcə ədəbiyyatşünaslar, ədəbiyyat həvəskarları deyil, ustad Şəhriyar da eşidir?! O anda bundan böyük bəxtəvərlik hiss eləmirdim" [6, s.245].

Azərbaycanın qadın aşıq və şairləri, onların əsərləri haqqında məlumat toplayıb, çap etdirib, onları tanıtmaq kimi bu nəcib işə Vətənimizin hər iki tərəfində, hətta Avropa ölkələrində belə böyük maraq göstərilmiş və minnətdarlıq hissi ilə yanaşılmışdır. Ə.Cəfərzadənin 1974-cü ildə "Gənclik" nəşriyyatında çap etdirdiyi "Azərbaycanın aşıq və şair qadınları" adlı neçə-neçə şairənin çoxəsrlik fəaliyyətini, ilhamını, yanğısını, fəryadını əks etdirən antologiya ilə tanış olan macar alimi, doktor İştvan Bano demişdi: "Məni xüsusilə heyrətə salan budur ki, hər cəhətdən qadınını kölə olduğu bir ölkədə və zəmanədə bu qədər şair və aşıq yetişmişdir" [9, s.159].

Cənublu şair K.M.Sönməz isə Ə.Cəfərzadənin bu işinə diqqətəlayiq münasibətini ona göndərdiyi məktubda bildirmişdir. O məktubda yazırdı:

"Hörmətli alim bacımız Əzizə Cəfərzadə! Səmimi salamlarla!

Bildiyimizə görə siz Azərbaycanın savadsız (təhsilsiz – L.M.) şairlərini xalqımıza tanıtdırmaq fikrindəsiniz. Bu ən gözəl, nəcib işlərdəndir. Axı siz hansı bir işə əl vurmusunuz ki, nəcib olmasın? Qadınlarımız tarix boyu çətinliklərə, zülmə, işgəncəyə məruz qalmış, Allahın bəxş etdiyi təbii hüquqdan belə məhrum olmuşlar. Bu məhrum qadınların sırasında şeirlə, sənətlə maraqlananı, şairlik istedadına malik olanı az olmamışdır. Lakin təəssüflər olsun ki, savadsızlıq onların inkişafına, istedadlarının çiçəklənməsinə mane olmuş, qoşduqlarını bir yerə qeyd edən, onlara qayğı göstərən olmamış, qoşduqlarını unutmuşlar" [12, s.13].

(K.M.Sönməz Ə.Cəfərzadəyə Təbrizdə anadan olmuş xalası Haciyə (Zəhra Sultan Pursənəti Ələkbər qızı) haqqında məlumat və şeirlərindən nümunələr də göndərmişdir).

Ə.Cəfərzadənin "Güney Azərbaycanın qadın aşıq və şairləri" (2002) məqaləsindən bəlli olur ki, XVIII əsrdən təbrizli bayatıçı qadınlardan Humay xanımın, Əsmər xanımın adı məlumdur. XIX əsrdə isə Sahib Sultan, Tahirə Qürrətüleyn və Ziba xanım Ləli yaşayıb yaratmışlar. Sahib Sultan Cənubi Azərbaycanın Dümbül, Tahirə Qürrətüleyn Qəzvin, Ziba xanım Ləli isə Ərdəbil şəhərlərindəndirlər.

Həm İran, Azərbaycan, həm də Qərbi Avropa mənbələrində T.Qürrətüleynin həyatı və mübarizəsi tarixi bir əfsanəyə çevrilmiş, bu istedadlı şairin dahi mütəfəkkir Mirzə Fətəli Axundzadə, dünya şərqşünaslıq elmində nadir simalardan olan Mirzə Kazım bəy, böyük türkçü Nihal Adsız, ingilis şərqşünası Eduard Braun şəxsiyyətini və fəaliyyətini yüksək qiymətləndirmişlər.

Cənubi Azərbaycanda islamiyyətin, xüsusilə farslaşdırma siyasətinin dərin kök saldığı yerlərdə XX əsrin sonlarına qədər qadının əsərlərinin nəşri, üzə çıxarılması müşkül hal almışdır.

XX əsrin görkəmli Cənubi Azərbaycan qadın şairləri Pərvin Etişami, Nimtac xanım, Münirə Tana, Mədinə Gülgün, Hökümə Billuri, Mərziyə Əhmədi Üskui, Xavər Qəhramanı və başqaları da oxuculara məlumdur.

Bütün həyatını, xalqının milli istiqlaliyyəti uğrunda azadlıq mübarizəsinə həsr etmiş M.Ə.Üskui Azərbaycan xalqının istedadlı olduğu qədər də əfsanəvi igid qızı olmuşdur. O, azad fikrə qarşı çıxan xəfiyyə idarəsinin (SAVAK-ın) əməkdaşları ilə çarpışma meydanında mərdliklə vuruşaraq şəhid olmuşdur.

Ə.Cəfərzadə M.Ə.Üskui haqqında 1982-ci ildə "Azərbaycan müəllimi" qəzetinin "Cənubdan səslər" rubrikasında "Səni kim unudar Mərziyə!" sərlövhəli məqalə ilə çıxış etmişdir. Bu məqalə Mərziyə haqqında neçə-neçə əsərin yaranmasına yol açmışdır.

Cənubi Azərbaycanda Tahirə Qürrətüleyn, Mərziyə Əhmədi Üskui kimi qadınlar şair, nasir, müəllim olmaqla bərabər ictimai hərəkatda, azadlıq mübarizəsində ata, ər və qardaşlardan əsla geri qalmamış, hətta öndə getmiş, öz həyatını, yaradıcılığını bütün çətinliklərə, təqiblərə, həbslərə, qəsdlərə baxmayaraq, xalqın azadlıq yolunu işıqlandırmağa həsr etmişlər. İran və Cənubi Azərbaycan həyatının acınacaqlı səhnələrini mübariz, döyüşkən cəbhədən ifşa etmişlər.

Ə.Cəfərzadə 1962-ci ildə qələmə aldığı "Üç şairənin deyişməsi" adlı məqaləsində klassik poeziyamızın davamçılarından olan XIX əsrin ikinci yarısında yaşamış Ziba xanım Ləlinin "Ağam canı" rədifli qəzəlini və onun Qarabağ şairlərindən Qəmər bəyim Şeyda, Fatma xanım Kəminə ilə şeirləşməsini özü demişkən "ona görə misal gətirir ki, hələ də bəzi tədqiqatçılar Ziba xanımın varlığını inkar edir, qəzəlin Məhəmmədəli Ləli (Mirzə Əli xan Ləli – L.M.) divanına daxil olunmasından istifadə edərək, sübuta çalışırlar ki, "qəzəl Zibanın deyil" [4, s.159].

Cənubi Azərbaycandan Şimali Azərbaycana gələn şeirlərin azlığından və zəifliyindən məyus olan Ə.Cəfərzadə bunu Cənubda ana dilində məktəb, kitab, mətbuat olmaması ilə əlaqələndirirdi: "Əlimizə tək-tük daha çox təsadüfi əsərlər, haradansa, sanki zindandan can qurtarıb gəlirdi. Qaçaq gəlirdi, gizli, qorxulu yollardan keçirdi. Aylarla poçt, gömrük məmurlarının, şeirdən şeiriyyətdən, poeziyadan başı çıxmayan, hər kəlmədə bir sətiraltı, bir gizli məna axtaranların əlində "saf-çürük" edilirdi... Belə şəraitdə Cənubi Azərbaycanda yaranan poeziya haqqında ümumi küll halında söz demək çətin idi. Yazanların çoxu, bəlkə də hamısı doğma türkcəsi ilə yazdığı əsl adını gizlətməli olurdu [3, s.4].

Elə buna görədir ki, xalq yazıçısı, akademik Mirzə İbrahimov hələ 1982-ci ildə qələmə aldığı "Həyatın dərinliklərinə" adlı məqaləsində həyatı işığı və kəskin problemləri ilə əks etdirən yazıçılardan Əzizə Cəfərzadənin də adını çəkmişdir.

Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasından sonra Cənubdan gələn poetik nümunələrdə bir canlanma özünü göstərdiyini Ə.Cəfərzadə "Gördüklərim, eşitdiklərim, düşüncələrim" sərlövhəli məqaləsində vurğulayır.

Şair Məmməd Aslanın da "Şəhriyarnamə" şeirində olduğu kimi:

*Şəhriyarım, nərildədin qəflətən,*
*Heyrətləndi o üz – bu üz bu Vətən.*
*Doğmalaşdın çölümüzdən evətən.*
*Bir də gördük hamımıza ürəksən,*
*Ürəklərə lazım olan gərəksən*! [1, s.8]

1990-cı ildə İran səfəri zamanı tanış olduğu şairlər, onların poeziya nümunələri, evlərində keçirilən ədəbi məclislərdəki çıxışları yazıçıda ümidverici əhvali-ruhiyyə yaratmışdı. Onlardan Haşım Tərlan, Azər Mazəndərani, Ataş, Həsən Məzidzadə Savalan, Həsən İldırım, Muradəli Qureyşi Qaflantı, Eloğlu, Yanar Ərdəbili, Əlirza Miyanəli, Elşən Sarablı, Şirin Təbrizli, Kəmalə Təbrizli, Günəş Miyanəli ilə görüşlərindən sevinc hissləri duymuşdur.

Ə.Cəfərzadənin Təbrizdən Şirin və Kəmalə, Miyanədən Günəş ilə tanışlığını onun "İranda üç şairə gördüm" adlı məqaləsində də görürük.

Cənubi Azərbaycanda və İranda yazıb-yaradan soydaşlarımızı yaş, təcrübə, şöhrət, sinfi mənsubiyyət ayrı-seçkiliyi olmadan Vətən məhəbbəti, Ana dili, Araz dərdi... kimi ümumi mövzuların birləşdirməsi Ə.Cəfərzadəni sevindirirdi.

Ə.Cəfərzadə Tehranda, Məşhəddə və Nişapurda şair və yazıçılarla səkkiz görüş keçirmiş, bu görüşlərdə Cavad Heyət, Qulamhüseyn Beqdeli, Həmid Məmmədzadə, Saplaq və başqaları ilə söhbətləşmişdir.

Yazıçı 1990-cı ildəki 13 günlük İran səfərinin 11-ci günü Əli Təbrizinin görüşünə getmişdir. Əlli il kitab nəşri ilə məşğul olan Ə.Təbrizinin Dəmirçi bazarındakı dükanlardan gələn icarə hesabına yaşaması Ə.Cəfərzadənin ürəyini ağrıtmışdır. Onda da ki, dükanları evi kimi boş ola.

Söhbətləri zamanı bir çox məsələlərdə Ə.Cəfərzadə ilə müştərək fikirlərinin olması Ə.Təbrizini məmnun etmişdir.

Yazıçı-alim Azərbaycan dilinin qorunmasında “Varlıq”, “Yol”, “Firuqi-azadi”, “Keyhan” da gedən Azərbaycanca səhifənin az da olsa rolu olduğunu vurğulayırdı. “Varlıq” varlığı boyu yeganə dərgidir ki, fasiləsiz olaraq oxucularına folklor materialları verir” [7, s.4].

“Varlığ”ın müəllifləri şair H.M.Savalan və A.Mazəndəraninin bayatıları jurnalda ayrıca yer almışdır. Cənubda Şimal həsrətini əks etdirən Araz bayatılarına Qarabağ və 20 yanvarla bağlı bayatılar da əlavə olunmuşdur.

Cənublu soydaşlarımız Ə.Cəfərzadə ilə üzbəüz və radio vasitəsilə görüş zamanındakı söhbətlərdə, yazdıqları məktublarda yalnız öz dərdlərindən danışmamış və yazmamışlar. Bizim də dərdlərimizə şərik olmuşlar. Qanlı yanvar faciəmizdən sonra alınan məktublar bunu bir daha sübut edir. Onlar radionun Cənub redaksiyası vasitəsilə həqiqəti öyrənə bilib və kədərlərini bildiriblər:

“Hörmətli Cənubi Azərbaycan redaksiyasının əməkdaşları! Sizə, Bakıda Yanvar hadisələrində müsibət görənlərə və bütün o tayda kənd və şəhərlərdə yaşayan həmvətənlərimə dərin hüznlə özümün, ailəmin, dost və qohumlarımın təsliyətimizi* bildirirəm. Əzizlərim, sizin qəm-kədəriniz, müsibət və nisgilləriniz bütünlüklə bizimkidir və bu böyük matəmə biz də özümüzü şərik bilirik. Axır qəminiz olsun. Sizə qurban Əbuzər iman (Mazandarandan)” [5, s.5].

Geniş və hərtərəfli yaradıcılığa malik olan Ə.Cəfərzadənin bütün ömrü boyu heç nə nəzərindən qaçmamışdır. O hər bir yaradıcı insana, onun şəxsiyyətinə, əsərlərinə diqqət və hörmətlə yanaşmış və haqqında səmimi fikir söyləmiş, əməklərini dəyərləndirmişdir.

Ə.Cəfərzadə Mirzə İbrahimovun “həyatının həyat məktəbi, insan olmaq gərək olanda kimsəsizə, çarəsizə kömək əli uzatmaq məktəbi” olmasından, “Böyük insan, xalq yazıçısı (Mirzə İbrahimov)” (1981), Süleyman Rüstəmin Cənub şeirlərinin bayraqdarı adlandırılmasından “Yenə də açıldı xatirələrim” (1997), Cənub və Cənub poeziyasının Cəfər Xəndan yaradıcılığında həm alim, həm də şair kimi mühüm yer tutmasından “Şair, alim, müəllim (Cəfər Xəndan)” (1980), Mirvarid Dilbazi üçün Azərbaycan Arazın o tayı-bu tayı timsalında vəhdət halında bir Vətən olmasından “Şairə və Ana (Mirvarid Dilbazi)” (1983-1984), ədəbiyyata gözünü açandan tanıdığı Abbas Zamanovun nəzərində həmişə ədəbiyyatımızın yayılması yolunda əsl fədakar şəxsiyyət kimi qalmasından “Abbas Zamanov haqqında xatirələrim” (2003), Cənub ədəbiyyatımızın Şimalda ən fəal təbliğatçısı Sabir Əmiri (Nəbioğlu) ilə bir-birindən öyrənmələrindən, onun yaradıcılığını daim izləməsindən “Bir əlyazmanın tarixçəsi (Qulamrza Cəmşidi)” (2001) məqalələrində söhbət açmışdır.

Yazıçının Cənubi Azərbaycandan hərbi məktəbdə oxumaq üçün Bakıya gələn Qulamrza Cəmşidiyə bayram tədbiri keçirilməsi üçün köməklik etdiyinə görə Mir Cəfər Pişəvərinin ona təşəkkür etməsindən “Bir əlyazmanın tarixçəsi (Qulamrza Cəmşidi) (2001), Hökumə Billurinin əyninə hərbi paltar geyinib, əlinə silah almasını eşidəndə heyrətlənməsindən “Şairə, Ana, Vətəndaş” (1974), Rafiq Mirzəağayevin “Təbrizim” adlı yazısını xoşlamasından “İnamla, ümidlə” (1990) məqalələrindən xəbər tuturuq.

Ə.Cəfərzadə Cənubi Azərbaycan yazıçı və şairlərinin əsərləri və Cənub mövzusundakı əsərləri əks etdirən kitablar ilə oxucuları yaxından tanış etməyi özünə həmişə borc bilmişdir. Belə ki, Abbas Pənahi Makulinin “Səttarxan”, “Xalq qəhrəmanı haqqında roman”, Məhəmmədəli Niqabinin “Soltan Savalan”, “Soltan Savalan və onun haqqında bir neçə söz”, Qulamrza Səbri Təbrizinin “Fikir dalğaları”, “Həyat fəlsəfəsi”, “Mənim iki dünyam” əsərləri “Düşünən və düşündürən şair”. Q.S.Təbrizi. “Baxışlar, düşüncələr, arzular”, Qulamrza Cəmşidinin “Ana” şeiri “Tanıdıqlarım və sevdiklərim xatirələrimdə”, Əlirza Miyanəlinin tərtib etdiyi “Kiçikdən böyüyə” şeir toplusu. “Kiçikdən böyüyə”, Ərzurumlu Əli Kafkasyalının çap etdirdiyi altı cildlik Güney Azərbaycan ədəbiyyatı antologiyası”, “Güney Azərbaycan ədəbiyyatı antologiyası” bunlardandır.

* Təsliyət – təsəlli vermə, ürək-dirək vermə.

A.P.Makulinin Cənubi Azərbaycanda, İranda cərəyan edən hadisələri daha dərindən bilən yazıçı olduğu üçün oxucunun Səttarxan surətinin hərtərəfli dolğun təsvirini məhz Makulidən gözləməyə haqlı olduğunu vurğulayan, sərbəst şeirə o qədər də alışa bilməməsini bildirən Ə.Cəfərzadə Q.S.Təbrizinin şeirləri haqqında deyir ki, “onlar sərbəst olsalar da, onlardakı daxili ritm və qafiyələr ruhu azəriləşdirir, doğmalaşdırır” [2, s.177].

Q.Cəmşidinin yazıçının arxivindən tapılan “Ana” şeiri haqqında isə deyir: “O, Gəncliyimizin coşqun, Cənub həsrəti ilə, birlik arzuları ilə qızğın çırpınan ürək döyüntülərimizi, müsahibələrimizi, nidalarımızı yada saldı” [6, s.199].

Ə.Cəfərzadə Ə.Miyanəlinin tərtib etdiyi böyükhəcmli “Kiçikdən böyüyə” şeir toplusunu Arazın hər iki tərəfindəki Azəri türklüyü üçün vacib hesab edərək onun o taydakı şairləri bu taya, bu taydakıları o taya tanıtmaq kimi bir missiyanı layiqincə yerinə yetirdiyini, Əli Kafkasyalının “Güney Azərbaycan ədəbiyyatı antologiya”larının analoqunu ədəbiyyatda, nəşriyyat tarixində görmədiyini vurğulayır.

Yazıçı bədii yaradıcılığında da Cənubi Azərbaycan mövzusuna geniş yer vermişdir. Onun “Zərrintac” (1994-1995), “Zərrintac-Tahirə” (1996, 2003), “İşığa doğru” (1998), “Xəzərin göz yaşları” (2003) romanları, “Arazın mahnısı” (1945-1946) hekayəsi və sair bu mövzuda olan əsərlərdəndir.

Həyatı və mübarizəsi mənsub olduğu xalqın taleyi ilə qırılmaz surətdə bağlı olan bəzi görkəmli şəxsiyyətlərin obrazlarını romanlarında canlandırmaq Ə.Cəfərzadənin yaradıcılığında mühüm yer tutur. Bu baxımdan Azərbaycan əsilli qəzvinli şair, müəllim, inqilabçı, Babilər hərəkatının lideri Tahirə Qürrətüleyn (1819-1852) özünün yazdığı kimi onu “ömürlük valeh edən bir mövzu olmuşdur”. Ə.Cəfərzadə İngiltərə, Türkiyə, İran, Sovetlər İttifaqının Sankt-Peterburq, Moskva, Daşkənd, Bakı, Alma-Ata, Xarəzm, Düşənbə şəhərlərinin arxivlərində tədqiqat aparmış, Qürrətüleynlə əlaqədar nə varsa imkan daxilində yaradıcılıq süzgəcindən keçirərək, onlara yeni həyat vermişdir.

Əsərdən məlum olur ki, T.Qürrətüleyn öz dövründə böyük bir əməl, azadlıq, istiqlaliyyət, bərabərlik rəmzinə çevrilmişdir. Baba görə Allahın tək, təbiətdə hər şeyin təmiz olması və qadın-kişi bərabərliyi Zərrintacı babilik hərəkatına çəkmişdir. Ona qarşı olan təqiblərdən, qəsdlərdən qorunmaq üçün gah Tahirə, gah Fatimə, gah Zəkiyyə, gah Ümmüsəlimə, gah Zəhra çağırılmışdır. Zərrintac millətinin birliyi, səadəti, taleyi naminə yalnız atasından, əmisindən, ərindən, müəllimindən, övladlarından deyil, hətta özündən də keçməyi lazım bilmişdir.

Roman ədəbiyyat aləmində böyük əks-səda doğurmuş və onun haqqında dəyərli fikirlər söylənilmişdir. Vaqif Yusiflinin “Azadlıq yanğısı (Söhbət tarixi romanlarımızdan gedir)”, Yavuz Axundlunun “Tarixi roman yeni mərhələdə (1980-1990-cı illər)”, Arif Zeynallının “Qüdrətli sənətkar”, Əhməd Şami Elaydinin “Müstəqillik dövrü Azərbaycan romanı (1991-2005), Ayna Babazadənin “Əzizə Cəfərzadə nəsri: Tarixi gerçəklik və bədii təsvir” və sair əsərlərdəki fikirlər diqqətəlayiqdir.

Fil.e.d. V.Yusifli Ə.Cəfərzadənin romanlarında “tarixi mənbəni, bu mənbədəki real faktları heç cür təhrif etmək, yaxud nə isə özündən bir versiya əlavə etmək fikrindən uzaq” olduğunu söyləyir. Müəllif Tahirə Qürrətüleynin düşmənləri qarşısında böyük qətiyyətlə söylədiyi sözləri xatırladaraq yazır ki, bu da həmin azadlıq yanğısıdır ki, səkkizinci əsrdə Babəkin son harayında səslənmişdi. Və “bu da azadlıq yangısının bədii ifadəsi son illərin tarixi romanlarında daha ucadan səslənir. Xalqın tarixi yaddaşını silkələmək üçün, yurd savaşına çıxmaq üçün haraylayır bizi” [14, s.186-187].

Yazıçının “Zərrintac-Tahirə romanının bir növ davamı olan Nəsrəddin şah dövründə “Cənubi Azərbaycanda binəsiblərin bir parça çörək ümidilə müxtəlif dini məzhəblərə qoşulmalarını əks etdirən “İşığa doğru” romanı haqqında Q.S.Təbrizi “Ön söz yerinə, yaxud işıqlı ömrün bəhrəsi”, V.Sultanlı “İşıq və ideal axtarışları” sərlövhəli yazılarında fikir bildirmişlər.

Prof. O.S.Təbrizi müəllifin “zülm, istibdad, dərəbəylik olan ölkələrdə binəsiblərin istismarı davam etdikcə mübarizənin də davam edəcəyi, insanların işığa doğru can atacaqları” qənaətinə tərəfdar çıxır.

Fil.e.d. S.Nəbioğlunun “Məhəbbətə çevrilən göz yaşları” məqaləsi Ə.Cəfərzadənin “Xəzərin göz yaşları” romanı haqqındadır. Romanı göz yaşları ilə oxuyan müəllif yazır: “Əzizə xanımın həmin mövzunu qələmə almaqda göstərdiyi yazıçı cəsarəti, kişi qeyrəti, Vətənin Cənub tayına məhəbbəti tarix tərəfindən yüksək qiymətləndirilməyə layiq bir hünərdir” [10, s.31].

Ə.Cəfərzadənin Cənubi Azərbaycana, onun xalqına, yaradıcı insanlarına, ədəbiyyatına məhəbbəti və onların yolunda çəkdiyi zəhmət heç də qarşılıqsız qalmamışdır. Belə ki, M.Şəhriyar, Cavad Heyət, K.M.Sönməz, Ə.Təbrizi, Q.S.Təbrizi, S.Nəbioğlu və başqaları onun şəxsiyyətini, səmimiyyətini, əməyini yüksək qiymətləndirmişlər.

Q.S.Təbrizi “Əzizə xanım Cəfərzadənin “canlı bir tarix olması, bu qədər zəngin ədəbi irsin bir insan ömrü çərçivəsində yaranmasının heyrət doğurması”nı, S.Nəbioğlu “Xəzərin göz yaşları”nın Vətənin yazıçı anasının gözlərindən şəlalənən saf sulu, dumduru qayğı çeşməsi hesab etməsindən Vətənin hələ də ağ günlər sorağında olan övladları naminə axıtdıgı göz yaşlarının qara daşın köksündə də qızılgül bitirəcəyinə inanması”nı qürurla vurğulayırlar.

Q.S.Təbrizi Ə.Cəfərzadənin xatirəsinə böyük kədərlə yazırdı:

*Ürəyin tək açıq qapın*
*Xalqın ümid yeriydi.*
*Səsin – ulu millətimin*
*Haqq istəyən səsiydi.*
*Qəlbində daşıdığın*
*Bu millətin dərdiydi.* [13, s.2]

## Nəticə / *Conclusion*

O taylı – bu taylı ədəbiyyatımızın inkişafına böyük töhfə olan bütün yaradıcılığı boyu Azərbaycanın Xalq yazıçısı, professor Əzizə Cəfərzadəni yaxından maraqlandıran Cənubi Azərbaycan mövzusu onun əsərlərinin böyük bir hissəsini təşkil edir. Cənubi Azərbaycan xalqının tükənmək bilməyən dərdləri onun qələmi ilə bayatılarda, məqalələrdə, xatirələrdə, romanlarda, hekayələrdə, hətta müsahibələrdə belə əks etdirilərək xəstə könüllərin dərmanına çevrilmişdir.

Ə.Cəfərzadənin Cənubi Azərbaycan mövzusundakı tədqiqatları da səmərəli nəticəsini vermişdir. Tarixi faktlara böyük məsuliyyət və qayğı ilə yanaşması əsərlərinin oxunaqlılığını daha da artırmışdır. Onun əsərləri Azərbaycanın hər iki tayında, hətta Avropa ölkələrində belə öz layiqli qiymətini almışdır. Cənublu soydaşlarımız onu ana, bacı, övlad kimi sevmiş, qayğıkeşliyindən, səmimiyyətindən və əsərlərindən faydalanmışlar.

## Ədəbiyyat / *References*


1. Aslan M. Şəhriyarnamə. – “Ədəbiyyt və incəsənət”, 1989, 10 noyabr, s.8.
2. Cəfərzadə Ə. Düşünən və düşündürən şair. Q.S.Təbrizi. Baxışlar, düşüncələr, arzular. – Bakı, 2000, s.177; 179.
3. Cəfərzadə Ə. Gördüklərim, eşitdiklərim, düşüncələrim. – “Azərbaycan müəllimi”, 1991, 8 fevral, s.4.
4. Cəfərzadə Ə. Güney Azərbaycan aşıq və şairləri. – “Azərbaycan”, 2002, № 8, s.159.
5. Cəfərzadə Ə. Xudafərin körpüsü. – “Ədəbiyyat və incəsənət”, 1991, 3 may, s.5.
6. Cəfərzadə Ə. Tanıdıqlarım və sevdiklərim xatirələrimdə /Tərt.ed. T.İbrahimov/. – Bakı: XAN, 2021, s.199; 243-246.
7. Cəfərzadə Ə. “Varlıq dərgisi və folklor”. – “Azərbaycan müəllimi”, 1991, 24 aprel, s.4.
8. Cəfərzadə Ə. Yora bilməz yollar məni. – “Azərbaycan müəllimi”, 1986, 29 oktyabr, s.4.

9. Cəfərzadə Ə. Yora bilməz yollar sizi... (Cənubi Azərbaycanda yaşayan qadın şairlərin yaradıcılığı haqqında). – “Azərbaycan”, 1987, № 3, s.159.
10. Nəbioğlu S. Məhəbbətə çevrilən göz yaşları. – Bir ovuc hədiyyə. – Bakı: Nurlan, 2005, s.31; 37.
11. Rəfibəyli N. İşıqlı həyat həsrətində. Azərbaycan qadın şairləri antologiyası /Tərt. ed. Ə.Cəfərzadə/. – Bakı: Avrasiya-Press, 2005, s.9.
12. Sönməz K.M. Hörmətli alim bacımız Əzizə Cəfərzadəyə! (məktub). “Ədəbiyyat qəzeti”, 2020, 11 yanvar, s.13 (Məktubu redaksiyaya öz şəxsi arxivindən tapan Xalq şairi Sabir Rüstəmxanlı göndərmişdir).
13. Təbrizi Q.S. “Əzizə Cəfərzadənin xatirəsinə (şeir). – “Ədəbiyyat qəzeti”, 2003, 12 sentyabr, s.2.
14. Yusifli V. Azadlıq yanğısı (söhbət tarixi romanlardan gedir). – “Azərbaycan”, 1997, № 9-10, s.186-187.

## Тема Южного Азербайджана в творчестве Азизы Джафарзаде

**Лятифа Мирзоева**
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** В творчестве народного писателя Азербайджана, профессора Азизы Джафарзаде на протяжении всей жизни в вышедших из-под её пера произведениях, трудах находят выражение интерес к теме Южного Азербайджана, беспокойство как писателя, учёного, так и патриота по поводу трудностей, с которыми сталкиваются наши южные соотечественники. Вышедшие в свет труды и произведения на эту тему писателя и учёного, путевые впечатления, данные интервью читаются с интересом, носят впечатляющий характер с точки зрения желания их изучения. Наряду с её научными и художественными произведениями, достойна одобрения и её трудная и кропотливая работа по исследованию жизни и творчества женщин Южного Азербайджана, в особенности освещения и ознакомления всего мира с написанными ими тайком, полными тревоги стихами об их бесправии, мечтах об освобождении от гнёта, которые они не могут выразить открыто. Эта кропотливая работа была с большим интересом и чувством благодарности встречена в обеих частях нашей Родины и даже в европейских странах. Большинство произведений, исследований Азизы Джафарзаде, связанных с Южным Азербайджаном, вызвало отзвук в научном мире и открыло дорогу к созданию ряда новых произведений. Её деятельность в этой области была высоко оценена в той и другой частях Азербайджана.
**Ключевые слова:** тоска по Родине, печаль, разлука, родной язык, единство мыслей